# NEKROLOQ

## Sərdar Sadıx oğlu Səmədov



Uzun sürən xəstəlikdən sonra 85 illiyini yenicə qeyd etdiyimiz universitetin ağsaqqal professorlarından biri, geologiya elminin sükanı arxasında duran, bir çoxunun əziz və istəkli müəllimi, geologiya-mineralogiya elmləri doktoru, görkəmli alim, əməkdar müəllim Sərdar Sadıx oğlu Səmədov iyul ayının 5-də dünyasını dəyişmişdir.

Prof. S.S.Səmədov şərəfli həyat yolu keçmişdir.

Sərdar Səmədov 1927-ci il iyunun 28-də Bakıda neftçi ailəsində anadan olmuşdur. O, Enerji-Maşınqayırma texnikumunu bitirdikdən sonra 1947-ci ildə Azərbaycan Dövlət Universitetinin (hazırda BDU) geoloji-coğrafiya fakültəsinə daxil olmuş və 1952-ci ildə oranı bitirərək mühəndis-geoloq ixtisasına yiyələnmişdir. Əmək fəaliyyətinə tələbə ikən başlamış və Azərbaycan EA-nın prezidenti akademik Musa Əliyevin rəhbərlik etdiyi paleontologiya və tarixi geologiya kafedrasında laborant kimi çalışmışdır. Daha sonra bu kafedranın aspirantı (1952), assistenti (1955), dosenti (1960) və professoru (1973) vəzifələrində fəaliyyət göstərmişdir.

Prof. Sərdar Səmədov elmi fəaliyyətə 1955-ci ildən başlamışdır. 1956-cı ildə BDU-nun ixtisaslaşdırılmış müdafiə Şurasında "Azərbaycanın neftli-qazlı vilayətlərindəki tektonik qırılmalar" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. Bu dissertasiya işində o, Azərbaycanın neftli-qazlı vilayətlərinin tektonik qırılmalarının ilk morfogenetik təsnifatını vermiş, onların neft-qaz yataqlarının lokallaşmasına, yerdəyişməsinə, pozulmasına təsirini təhlil etmişdir. Namizədlik dissertasiyasını yerinə yetirərkən o, Moskva Dövlət Universitetinin tanınmış neftçi-alimi prof. İ.O.Brodun rəhbərliyi ilə Qərbi Türkmənistanın və Şərqi Azərbaycanın geologiyasının öyrənilməsi üzrə elmi-tədqiqat işləri aparmışdır. 1969-cu ildə "Xəzərin qərb sahili boyu yura çöküntülərinin tektonikası və neftlilik-qazlılığı" mövzusunda doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. Tədqiqatçı elmi işində yeraltı suların hidrokimyəvi xassələri və hidrodinamik şəraitini, minerallaşma dərəcəsini, mikroelementlərini nəzərə alaraq yura çöküntülərində neft-qaz yataqlarının gerçəkliyini təsdiqləmiş, onların axtarış və kəşfiyyatı üzrə konkret, səmərəli praktiki tövsiyələr vermişdir.

Prof. Sərdar Səmədov ilk dəfə olaraq geologiyaya "izoxazm" anlayışını (çatların kəmiyyət ölçülərinin izoxətlərlə verilməsi üsulu) daxil etmişdir. Bu

termin 1962-ci ildə informasiya bülletenində verilmiş, 1978-ci ildə AMEA-nın Geologiya İnstitutu tərəfindən dərc olunan geologiya lüğətinə daxil edilmişdir. Bu üsul vasitəsilə Azərbaycanın (1961), daha sonra Dağıstanın (1962) izoxazm xəritələri tərtib edilmişdir. Şərqi Qafqaz üçün tərtib edilən bu tip xəritə kosmik üsullarla alınan materiallarla əsaslandırılmışdır.

Alim son illər tədqiqatlarında yodlu-bromlu və zəif minerallaşma dərəcəli lay sularının öyrənilməsini mühüm bir praktiki məsələ sayırdı. Bu tədqiqatların nəticələri "Azərbaycanın mezokaynozoy çöküntülərinin neftli-qazlı lay suları və yeraltı su ehtiyatlarına neftin ekoloji təhlükəsi" (2003) adlı monoqrafiyasında öz əksini tapmışdır. Prof. Sərdar Səmədovun tədqiqatlarında diqqəti cəlb edən vacib məsələlərdən biri də Xəzər akvatoriyasında olistrostrom tipli kollektorlarda neft-qaz yataqlarının axtarışı məsələsi olmuşdur.

Prof. Sərdar Səmədov xarici ölkələrdə elmi-pedaqoji fəaliyyət aparmış, 1971-1974-cü illərdə Əlcəzairdə (Bumerdes) Neft-qaz İnstitutunda, 1977-79-cu illərdə Əfqanıstanda Kabil Politexnik İnstitutunda mühazirələr oxumuşdur.

Prof. Sərdar Səmədov uzun illər MDB və bir sıra xarici dövlətlərin universitetləri və elmi-tədqiqat institutları ilə əməkdaşlıq etmişdir. Ölümündən bir qədər öncə İngiltərənin "Neftex" Limited neft şirkəti Əfqanıstanın neft-qaz yataqlarının geologiyası məsələləri ilə əlaqədar prof. Sərdar Səmədova iş birliyi təklifi ilə müraciət etmişdi.

Prof. Sərdar Səmədov 200-ə yaxın elmi əsərin müəllifi bir çox beynəlxalq və respublika miqyaslı konqres və konfransların iştirakçısı olmuş, məruzələrlə çıxış etmişdir. Prof. Sərdar Səmədovun yüksək ixtisaslı mühəndis-geoloqların kadrların hazırlanmasında əvəzsiz xidmətləri olmuşdur. Onun rəhbərliyi altında 20-yə yaxın fəlsəfə doktoru, o cümlədən Əlcəzair, Əfqanıstan, Yəmən, Misir kimi xarici ölkələrdən vətəndaşlar hazırlanmışdır.

Prof. Sərdar Səmədov kadr hazırlığında fundamental fənlərin tədrisi ilə yanaşı geniş oxucu kütləsinə ünvanlanan "Azərbaycan Uralı", "Tektonofizika nədir?", "Daşkəsən filizləri", "Природные и минеральные богатства Дашкесана", "Əlcəzair bu gün" kimi maraqlı kitabların müəllifidir.

1985-1992 və 2005-2011-ci illərdə "Ümumi geologiya" kafedrasına rəhbərlik edən prof. Sərdar Səmədovun çoxillik əmək fəaliyyəti dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmişdir. O, "Əməkdar müəllim" adına, bir sıra fəxri fərman və təşəkkürlərə layiq görülmüşdür.

Prof. Sərdar Səmədov professor-müəllim və tələbə heyəti tərəfindən sevilən, öz yetişdirmələrinə qayğıkeşliklə yanaşan çox mehriban, həlim, yaxşı dost olmuşdur. Hesab edirik ki, Sərdar müəllimin yeri həmişə görünəcəkdir. Allah sənə rəhmət eləsin Sərdar müəllim.

**A.M.Məhərrəmov, İ.N.Əliyeva,**
**A.H.Kazımzadə, V.M.Babazadə, A.İ.Xasayev,**
**F.Ə.İmanov, Ş.Y.Göyçaylı, M.İ.Çıraqov,**
**B.H.Qələndərov, Ə.Q.Novruzov,**
**H.M.Hüseynov**